# Siyasi idarəetmə və idarəçilik mədəniyyəti

Çətin sənət olaraq qəbul edilən siyasi idarəetmə və idarəçilik mədəniyyəti haqqında danışılarkən dünya siyasi tarixində istinad ediləcək yeganə ünvan böyük siyasi xadim Heydər Əliyev və onun təkrarolunmaz həyat və fəaliyyətidir.

Bu bir həqiqətdir ki, Azərbaycanın müstəqil, hərtərəfli zəngin, dinidözümlü və mədəni, eyni zamanda, təcavüzə, işğala məruz qalmış dövlət olaraq dünyaya təqdim olunması prosesi məhz böyük Heydər Əliyevin sayəsində azı 20 il tez baş vermişdir. Qeyd olunan zaman çərçivəsində baş verəcək hadisələr sürətlənmiş, milli maraqlara cavab verməyən təkliflər rədd edilmiş, əksinə,ölkəmiz sırf azad iqtisadi inkişaf yolunda yorulmadan irəliləmiş, hədəflər müəyyənləşdirilmiş, xalqin mənafeyi üst səviyyədə qorunmuş, suverenliyimizin bərpası istiqamətində tukənməz enerji ilə siyasət davam etdirilmiş, ciddi islahatlar həyata keçirilmiş, ölkənin sosial-siyasi, mədəni-iqtisadi, elmi səviyyəsi yüksəlmiş, hərbi qüdrəti artmış, bir sözlə, həyatın bütün sahələrində tərəqqi əldə olunmuşdur.

Əldə olunan nailiyyətlərin şəxsiyyət faktoru ilə birbaşa bağlılığını sübut etməyə, zənnimizcə, ehtiyac yoxdur. Ehtiyac duyulan məsələ ondan ibarətdir ki, biz gərək həmişə vətəndaş mövqeyimizi ifadə edək. Vaxtilə başımıza gətirilən bəlalardan nəticəni təkcə “mən bu ölkənin vətəndaşıyam” deməklə deyil, hər gün onun həyatına yaxın olmaqla, onu hiss etməklə, onunla yaşamaqla çıxarmaq lazımdır. Bu həm də hər bir vətən daşının hesabatı anlamında olmalı, mahiyyət kəsb etməlidir. Məsələn, gəlin görək biz Möhtərəm Prezidentimiz İlham Əliyevin siyasi uzaqgörənlik və müdrikliklə həyata keçirdiyi daxili və xarici siyasətin mahiyyətini yetərincə anlayiriqmi, onu əxz edə bilirikmi?

Azərbaycan adlı vətənimizin düşdüyü bəlalardan çıxması üçün, onun yalnız xoşbəxt bir ölkə, dövlət olaraq yaşaması, var olması üçün yalnız və yalnız İLHAM ƏLİYEV HADİSƏSinə ehtiyacı oldugunu və geostrateji mövqeyimizi anlayaraq məhz Onun sayəsində dövlətimizin hədəflərinə dogru dəqiqliklə, sürətlə irəlilədiyinin fərqindəyikmi? Bu suallar ritorik deyil, bəlkə, minlərcə insanı düşündürəcək, ona təsir edəcək suallardir.

Amma eyni zamanda anlaşıqlı, cavablandırılması əməli fəaliyyət tələb edən suallardır. Bu gün cəmiyyətimiz vahid ideya istiqamətini artıq dünyaya bəyan etməkdədir. Ümummilli Lider Heydər Əliyevin qurmuş oldugu dövlətimizin təməlinin məhz bu ideya istiqamətindən asılı oldugunu, nəinki,bütün cəmiyyətimiz və dost dövlətlər, eyni zamanda bizi istəməyən, bizimlə maraqları ilə maraqlananlar qebul etməkdədir. Bu yalniz həyata keçirilməkdə davam edən İlham Əliyev siyasi gücünün, iradəsinin qələbəsi hesab edilə bilər.

Cənab Prezidentimizin AŞPA-dakı son cıxışı təkcə Azərbaycan hadisəsi və qələbəsi deyildi, o bir dünya siyasi mədəniyyətinin inkarolunmaz gücü, sanbalı, hökmü, diqtəsi və qələbəsiydi. Super güclər tərəfindən idarəonunma qəbuledilməzliyi, əsl idarəetmə məharətinin təzahürü idi. Xalqımızın məhz müdriklərə mandat verdiyinin, müdrik qərarlarla idarə olunma arzusunun, istəyinin əyani göstəricisi idi. Beləliklə, Heydər Əliyevin siyasi idarəçilik və yüksək siyasi mədəniyyət məktəbi öz töhfələrini verməkdə davam edir...

**İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir!**

**HEYDƏR ƏLİYEV**